**Mirqasım. Cəşmazər**

# S. C PİŞƏVƏRİNİN AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN VƏ AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN YARANMASI UĞRUNDA MÜBARIZƏDƏ ROLU HAQQINDA

...Cəmiyyət tarixində xalq kütlələrinin həlledici qüvvə olduğunu göstərməklə yanaşı, siyasi-ictimai xadimlərin də mühüm rol oynadığı qeyd edilməlidir. Buna görə də görkəmli inqilabçıların və siyasi xadimlərin inqilabi fəaliyyətini öyrənməyin həm elmi, həm də siyasi-praktiki əhəmiyyəti vardır.

Seyid Cəfər Pişəvəri * (1983—1947) Azərbaycan və İran xalqlarının imperializm və şahlıq quruluşu əleyhinə inqilabi hərəkatının yetişdirdiyi görkəmli partiya və ictimai xadimlərdən biridir. Cənubi Azərbaycanda 1945—1946-cı illərdə Azərbaycan Demokrat Firqəsinin (ADF) və Azərbaycan Milli hökumətinin (AMH) yaranması və bir illik fəaliyyəti dövründə S. C. Pişəvərinin yüksək inqilabi-nəzəri hazırlığı və təşkilatçılıq bacarığı özünü göstərmişdir.

İndiyə qədər Sovet İranşünaslığında və xaricdə Cənubi Azərbaycanda 1945—46-cı illər milli-azadlıq və demokratik hərəkatının mühüm məsələlərinə aid bir sıra monoqrafik əsər və məqalə yazılmışdır. Lakin bu inqilabi hadisələr dövründə S. C. Pişəvərinin siyasi xadim kimi rolu haqqında ayrıca tədqiqat aparılmamışdır. Bu, inqilabi təcrübə cəhətdən mühüm əhəmiyyətə malik olan bir mevzudur. Məqalədə S. C. Pişəvərinin göstərilən dövrdə milli-azadllıq və demokratiya uğrunda mübarizədə rolu 1941 — 1946-cı illərdə Cənubi Azərbaycanda və İranda inqilabi hərəkat qarşısında durmuş bir neçə problem əsasında, yığcam surətdə nəzərdən keçirilir. Qeyd olunmalıdır ki, məqalədə «tarixi xidmətlərə qiymət verilirkən tarixi xadimlərin müasir tələblərə nisbətən vermədikləri şeyləri deyil öz sələflərinə nisbətən verdikləri yeni şeylər əsas tutulur» [1] müddəasından çıxış edilmişdir.

İranın şahlıq rejiminə, irticaçı və imperialist- pərəst hakimiyyətinə münasibət məsələsi. 1941 — 1946-cı illərdə İranın siyasi-iqtisadi həyatında şahlıq rejimi, iri mülkədarlar və komprador burjuaziya hökmranlıq edirdi. 1941-ci ilin avqust-sentyabr aylarında İranda Riza şah diktaturası (1925—1941) dağıldı. Xalqın mübarizəsi nəticəsində mütərəqqi siyasi partiyalara və təşkilatlara fəaliyyət azadlığı, mitinqlər-nümayişlər keçirilməsi və mətbuat nəşr olunması kimi bir sıra demokratik azadlıqlar əldə edildi. hətta İranın ali qanunverici orqanı olan məclisin 14-cü çağrışına (26.01.1944—12.03.1946) Fəhlə sinfinin və diygər zəhmətkeş təbəqələrin partiyası İran Tudə partiyasının (ITP) üzvlərindən 8 nəfər və bir neçə azadxah deputat seçilməsinə müvəffəq olunmuşdu.

1945-ci ilin əvvəlindən M. Bəyat, M. Sədr və Həkiminin başçılıq etdiyi irticaçı hökumət İranda azadlıq qüvvələri əleyhinə ümumi hücuma keçərək proqressiv siyasi partiyaları və ictimai təşkilatları, mətbuatı bağlamağa və dağıtmağa başladı. Tehranda çıxan demokratik «Armane melli» qəzeti 1945-ci il avqustun 30-da yazırdı: «İranda azadlıq və demokratiya tamamilə təhlükəyə düşmüşdü. Bu irticaçı hökumət davam etdikcə ölkədə daxili müharibə, qan tökülməsi və vuruşmalar gözlənilir».

Belə bir şəraitdə şah başda olmaqla iri mülkədarlardan, komprador burjuaziyadan, yüksək rütbəli hərbi və mülki qulluqçulardan, 14-cü məclisin «əksəriyyət» təşkil edən deputatlarından ibarət qatı irticaçı qüvvələr və onlara mənsub İradeye melli, Nehzəte melli, Ədalət, Vətən və Mihən kimi partiyalar mövcud irticaçı quruluşu saxlamaq və möhkəmlətmək məqsədilə mümkün olan butün vasitələrlə xalqın azadlıq uğrunda hərəkatını boğmağa çalışırdılar.

İri burjuaziyanın ölkənin iqtisadiyyatı ilə bağlı olan hissəsindən, şəhərlərin orta təbəqələrindən, 14-cü məclisdə azlıq («əqəliyyət») təşkil edən deputatlardan və doktor Məhəmməd Müsəddiqin ətrafında birləşmiş şəxslərdən ibarət liberal qüvvələr və onlara mənsub İran və Mərdom partiyaları, ümumiyyətlə, istismarçı siniflərin hakimiyyətinə toxunmadan iri mülkədarların hakimiyyətdə rolunu bir qədər azaltmaq istəyirdilər. Onlar qatı irticaçı qüvvələr tərəfindən xalqa qarşı qeyri-məhdud zorakılıq işlədilməsinin inqilabi çıxışlara səbəb olacağından qorxurdular. Buna görə də irticaçı hökumətlərin bu əməllərinə qarşı çıxırdılar.

İranın fəhlə sinfindən, kəndlilərdən, sənətkarlardan və azadxah ziyalılardan və onlara mənsub İran Tudə Hizbindən, İran Fəhlə və Zəhmətkeşlər Həmkarlar İttifaqından (İFZHİ) və İran Azadlıq Cəbhəsindən ibarət olan demokratik qüvvələri ölkədə həqiqi demokratik rejim qurulması və ictimai azadlıqlar uğrunda, diktatorluq, istibdad rejimi və imperializm əleyhinə mübarizə edirdilər [2]. 1945-ci ildə İranın irticaçı qüvvələri bütün ölkədə xalqın azadlıq uğrunda hərəkatını boğmaq üçün şiddətli hücuma keçdiyi günlər İranın demokratik qüvvələrinin azadlıq uğrunda mübarizə taktikası xalqın fikrini işıqlandırmaqdan, öz təşkilatlarını, genişləndirməkdən və parlament mübarizəsindən» [3] ibarət olmuşdur. Hətta Cənubi Azərbaycanda 1945-ci ilin sentyabr-dekabr aylarında inqilabi xalq hakimiyyətinin yaranmağa doğru getdiyi bir şəraitdə Tehranda çıxan və İranın demokratik qüvvələrinə mənsub olan çox nüfuzlu qəzetlərdən biri yazıpdı: Həqiqi demokratik quruluş yaratmaq üçün «Dövlət hakimiyyətini irticaçılardan təmizləməkdən, onları mühakimə və cəzalandırmaqdan başqa heç bir yol yoxdur... hakim dairələri təmizləməkdən başqa bir çarə yoxdur» [4], göründüyü kimi, söhbət İranın irticaçı hakimiyyətini yıxmaqdan getmirdi.

İranın qatı irticaçı, liberal və demokratik qüvvələrinin 1941 — 1945-ci illərdə şahlıq rejiminə və irticaçı hakimiyyətə münasibətinin əvvəldə nəzərdən keçirilən yığcam təhlili göstərir ki, həmin illərdə İranın siyasi qüvvələrinin heç biri Azərbaycan və diygər xalqların milli azadlığını qarşıya məqsəd

qoymamışdı. Ümumi hücuma keçmiş irticanın qarşısını almaq, İran azadlıq hərəkatına dayaq yaratmaq və Azərbaycan xalqının milli və demokratik azadlığını tə'min etmək üçün mövcud siyasi qüvvələrdən əsaslı sürətdə fərqlənən siyasi təşkilatın yaranması zəruri olmuşdu.

Belə bir siyasi qüvvə 1945-ci ilin ikinci yarısında Cənubi Azərbaycanda yaranmaqda idi. Pişəvəri deyirdi: «Biz uzun-uzadı mütaliə etdikdən sonra yəqin hasil etdik ki, möhkəm bir təşkilat vücuda gəlməzsə, gündən-günə qüvvətlənməkdə olan selin (irticanın hücumunun—M. C.) qabağını sədd etmək mümkün olmayacaq. Ona görə də birinci növbədə böyük bir firqə yaratmağa təşəbbüs etdik» [5]. Azərbaycan Demokrat Firqəsi belə bir siyasi partiya oldu. O zaman Cənubiq Azərbaycanda yeni siyasi partiyanın yaranmasında fəal iştirak etmiş məsləkdaşlarının da fikrini ifadə edərək S. C. Pişəvəri demişdir: «İranda məclis və dövlət maşını tamamilə demokratizmin düşməni olan müstəbidlərin əlinə düşüb. Onlar bu böyük vasitədən istifadə edərək azadlığı və həqiqi demokratiya yolunda mübarizə edən fədakar qüvvələri əzib məhv etməkdədirlər. Tehranda kök salmış irtica və istibdad qüvvəsi xaricdə (Tehrandan xaricdə—M. C.) vücuda gələn azadlıq hərəkatlarını yatırmaq işində heç bir cinayətdən geri durmayacaqdır. Bu cinayətlərə xatimə vermək üçün oranın (Tehranın—M. C.) qüdrətini məhəlli və milli ixtiyarlar vasitəsilə sındırmaq lazım gəlir. Bu işdə Azərbaycan həmişə olduğu kimi indi də qabaqcıl olmalıdır. Tehrandan azadlıq ummaq böyük səhvdir» [6]. Bəhs olunan 1945-ci ildə İranın şahlıq rejiminə və irticaçı hakimiyyətinə qarşı S. C. Pişəvərinin tutduğu mövqe diygər siyasi xadimlərin və qüvvələrin mövqeyindən tamamilə fərqli idi. Pişəvəri inqilabi mövqe tutaraq İranın mərkəzi hökumətindən qanun, ədalət və azadlıq tələb edib intizarda oturmağın qəti əleyhinə idi. Aşağıdan, xalq kütlələrinin məhəlli və milli inqilabi qüvvəsi ilə İranda iri mülkədarların və komprador burjuaziyanın hakimiyyətini yıxmağı, əhali kütləsinə və millətlərə geniş hüquqlar verilməsi yolu ilə İranın dövlət quruluşunu demokratikləşdirməyi irəli sürürdü. S. C. Pişəvəri Azərbaycanda böyük inqilabi imkanlardan istifadə olunmasını və beləliklə hakimiyyət məsələsinin və milli məsələnin inqilabi yol ilə həll edilməsini təklif edirdi.

İnqilabi şəraiti vaxtında müəyyənləşdirmək və ondan istifadə etmək məsələsi, başqa inqilabi hərəkatlarda olduğu kimi, 1941 — 1945-ci illərdə Azərbaycanda milli-azadlıq və demokratiya uğrunda mübarizə zamanı xalq kütlələrinin inqilabi çıxış vaxtının düzgün seçilməsinin də böyük əhəmiyyəti olmuşdur. 1945-ci ilin ikinci yarısında Cənubi Azərbaycanda siyasi mübarizə: mülkədarlarla kəndlilər, fabrik-zavod sahiblərilə fəhlələr, dövlət idarələri ilə əhali arasında idi. İranın hakim dairələrinin Azərbaycandakı milli zülmünə qarşı mübarizə son dərəcə kəskinləşmişdi. Azərbaycanda irticanın hücumunun qarşısını almaq və xalqın azadlığına nail olmaq üçün çox böyük imkan var idi. Tehranda çıxan və İran Azadlıq cəbhəsilə bağlı olan «Bəşər» qəzeti 1945-ci il avqustun 23-də yazırdı: «hakim siniflərin özbaşınalığı həddini keçəndə çarə xalqın mütəşəkkil üsyanından ibarətdir. Bu üsyanın əlamətləri İranda görünməkdədir. Azərbaycan təlatümdədir və inqilaba hazırdır». Belə bir şəraitdə İranın

həm irticaçı, həm də liberal dairələri Azərbaycanda xalqın inqilabi çıxışının yubanmasına, bununla da tədricən soyunmasına və nəhayət qarşısının alınmasına çalışırdılar. Liberal siyasi mövqeyə malik olan Bahar heç bir konkret fakt göstərmədən iddia edirdi ki, İranın mərkəzi dövləti guya başqa əyalətlərdən daha çox Azərbaycana tərəfdarlıq edir [7]. Tehranda çıxan və hakim dairələrlə müəyyən dərəcədə bağlı olan qəzetlərdən bə'ziləri isə yazırdı: Azərbaycanlılar öz ehtiyaclarını demişlər və mərkəzi dövlətin diqqətini cəlb edəcəkdir. Yaxşısı budur ki, azərbaycanlılar öz milli mətləblərini və məqsədlərini dövlətdən istəsinlər və səbr etsinlər [7 a]. 14-cü məclis rəisinin müavini Şiraz deputatı Sərdar Faxer Hikmət isə sentyabrın 25-də məclisdəki çıxışında tələb edirdi ki, Azərbaycanda öz hüquqları uğrunda mübarizəyə qalxmış şəxslərin «əlləri və dilləri kəsilsin» [8]. İranın 14-cü məclisinin rəisi S. M. Təbatəbai 1945-ci il dekabrın 25-də məclisdə çıxışında deyirdi: Fərz edək ki, İranda gözə çarpan nöqsanlar vardır. Bütün əyalətlərdə olduğu kimi, azərbaycanlıların da gileyi və şikayətləri vardır. Lakin gərək sözü öz vaxtında demək, belə bir mövqedə yox [9].

Həmin vaxt hökumət Azərbaycanda xalqın inqilabi hərəkatını boğmaq üçün bir tərəfdən silahlı qüvvələrdən istifadə etməyə başladı, diygər tərəfdən vaxt qazanmaq üçün Təbrizdə inqilabi hərəkatın başçıları ilə danışığa girdi. 1945-ci ilin yayında M. Sədr hökuməti tərəfindən (5.06—21.10.1945) Cənubi Azərbaycandakı jandarm qüvvələrinə göstəriş verildi ki, mülkədarlarla kəndlilər arasında baş verən ixtilaflara birbaşa müstəqil olaraq qarışsınlar və bu yol ilə inqilabi hərəkata qoşulan kəndlilərə divan tutsunlar. Bu məsələ ilə əlaqədar Təbrizdə çıxan «Azərbaycan» qəzeti yazırdı: «Tehran irticasının qara barmağı Azərbaycan kəndlərində görsənməyə başlanır. Bunlar kəndlərə tökülən saysız-hesabsız jandarmlardan ibarətdir. Mülkədarların torpaqlarını qorumaq, bəhrə (torpaq rentası—M. Ç.) almaq bəhanəsilə kəndliləri döyür, incidir və narahat edirlər» [10].

«Azərbaycan» qəzeti yazırdı: «İranın mərkəzi hökuməti heç vaxt öz təcavüzkar mə'murlarının cinayətlərinin qarşısını almağa hazır olmur. Dodaq kəsmək, dağ basmaq, qarın yırtmaq və bu faciə ilə qətl və qarət etməyin orta əsrlərdə belə az sabiqəsi vardır». Azərbaycanda xalq hərəkatını boğmaq məqsədi ilə Həkimi hökuməti (3.11.1946—20.01.1946) 1945-ci il noyabrın 17 və 18-də Azərbaycana getmək üçün Tehrandan Qəzvin şəhərinə tərəf böyük bir qoşun dəstəsi göndərdi. Hökumət bununla yanaşı Şərqi və Qərbi Azərbaycanda bütün qoşun, jandarm və polis quvvələrinin ixtiyarını da bir nəfərin—general Ə. Dirəxşaninin əlində toplanmasına əmr verdi. İran hökuməti 1945-ci il noyabrın 25-də Təbrizdə Azərbaycanın bə'zi ruhaniləri, fabrik-zavod sahibləri, tacirləri, mülkədarları və maarif xadimləri vasitəsilə Azərbaycan demokratlarının başçıları ilə «danışığa» girdi. Bu danışıqlarda İran hökumətini təmsil edən şəxslər israrla tələb edirdilər ki, jandarmların və dövlət mə'murlarının zülmündən cana doymuş və əlinə silah götürüb azadlıq uğrunda vuruşan kəndlilərin əlindəki silahları yığışdırmaq barədə qərar qəbul olunsun və silahlar tezliklə toplansın və yalnız bundan sonra «işlər

haqqında müzakirə edək» [11] və «gözləyək görək Tehrandan dövlətin nümayəndəsi nə göstəriş gətirir» [12]. Hökumətin bu siyasi hiyləsi baş tutmadı.

Həmin günlər İran hökuməti Azərbaycanda inqilabi hərəkat rəhbərləri ilə birbaşa danışığa da girdi. Bu iş üçün İran şah dövlətinin siyasi xadimlərindən, o zaman Azərbaycana vali tə'yin olunmuş Murtuza Bəyat (Səhamüssəltənə) şahın və mərkəzi hökuməin rəsmi nümayəndəsi kimi 1945-ci il dekabrın 7-də Təbrizə gəldi. Dekabrın 8-dən 11-nə qədər İran hökuməti və Azərbaycan xalqının nümayəndələri arasında danışıqlar getdi. Azərbaycanın nümayəndə hey'ətinə S. C. Pişəvəri başçılıq edirdi. İran hökumətinin bu danışıqlarda da məqsədi baş qatmaqdan, vaxt qazanmaqdan, xalqı aldatmaqdan ibarət idi. İran dövlətinin nümayəndəsi Azərbaycan nümayəndələrindən hökumətə göndərilmək üçün «Azərbaycan xalqının tələblərinin siyahısını» [13] istəmişdi. Azərbaycan nümayəndələri 1945-ci il noyabrın 20-də özünü Azərbaycan müəssislər məclisi e'lan etmiş Azərbaycan Xalq Konqresinin (20—21.11.1945-ci il Təbriz) deklarasiyasını, qərarlarını və bəyannaməsini İran dövlətinin nümayəndələrinə təqdim etmiş və bildirmişdir ki, Azərbaycan xalqının əsas tələbləri bu sənədlərdə göstərilmiş və vaxtında İran şahına, məclisinə və hökumətinə göndərilmişdir. Həmin tarixi sənədlərə və İran Konstitusiyasına müvafiq olaraq Azərbaycan xalqı Azərbaycanda muxtar hakimiyyət orqanları yaratmağa başlamışdır. İran hökuməti nümayəndələri Azərbaycan xalqının əsas tələbləri ilə heç cürə razılaşmadılar, kiçik və əhəmiyyətsiz məsələlərin müzakirəsinə israr etdilər və milli muxtariyyətdən əl çəkilməsini irəli sürdülər [14]. Bunlara görə də müzakirə nəticəsiz qurtardı. Murtuza Bəyat şaha və hökumətə mə'lumat vermək üçün dekabrın 11-də Təbrizdən Tehrana getməli oldu.

Azərbaycanda azadlıq uğrunda siyasi və sinfi mubarizənin son dərəcə kəskinləşdiyi, İranın irtica qüvvələri bütün vasitələrlə xalqın inqilabi çıxışının qarşısını almağa çalışdığı bir vaxtda, S. C. Pişəvəri xalq inqilabının yetişdiyini və onun üçün böyük imkan yarandığını vaxtında görmüşdür. O, yazdığı məqalələrində, nitq və çıxışlarında dönə-dönə xəbərdarlıq edirdi ki, inqilabi çıxış üçün yaranmış fürsəti əldən vermək olmaz, əlverişli şəraitdən vaxtında istifadə etmək lazımdır. S. C. Pişəvəri 1945-ci il sentyabrın 12-də deyirdi: «fürsətdən istifadə edə bilmək özu böyük iste'dad və ləyaqət istəyir. Biz fürsəti əldən verməyə razı ola bilmərik, Əyalət Əncüməni və Məhəlli muxtariyyət məsələsini əməli surətdə həyata keçirməliyik» [15]. Sentyabrın 20-də isə o «Azərbaycan» qəzetində yazırdı: «Biz hər qiymətə olur-olsun cahan hadisələrinin verdiyi imkandan istifadə edib azadlığımızı tə'min edəcəyik» [16].

Müttəfiq qoşunlarının İranda olması irtica qüvvələrinin əl-qolunu müəyyən dərəcədə bağlamışdı. Beynəlxalq şərait imperializmi Azərbaycanda milli-azadlıq hərəkatı əleyhinə bilavasitə çıxmaq imkanından məhrum etmişdi. 1945-ci ilin mayında SSRİ-nin faşist Almaniyası üzərində tarixi qələbəsi dünyada qüvvələr nisbətini milli-azadlıq, demokratiya və sosializm cəbhəsi xeyrinə dəyişdirdi. İranda, o cümlədən Azərbaycanda xalq kütlələrinə çox böyük inqilabi tə'sir göstərdi və azadlıq hərəkatına qüdrətli təkan verdi. Bu tarixi qələbə Azərbaycanda əhalinin orta təbəqələrini—ortabab kəndliləri, sənətkarları,

azad peşə sahiblərini, ziyalıları və xırda burjuaziyanı tərəddüddən çıxartdı, öz hüquqları uğrunda sosial-siyasi mübarizəyə cəlb etdi. Əhalinin daha geniş sinif və təbəqələri mili-azadlıq və demokratiya uğrunda mübarizəyə qoşuldu. İranın istismarçı hakim təbəqələri isə ölkənin demokratik qüvvələri üzərinə hücuma keçdi. Belə bir şəraitdə S. C. Pişəvəri Azərbaycanda milli-azadlıq hərəkatı üçün yaranmış fürsətdən, əlverişli imkandan vaxtında və tə'xirə salmadan istifadə etməyə çağırırdı. O, 1945-ci il sentyabrın 12-də «Azərbaycan» qəzetində yazırdı: «İndi Azərbaycan xalqının əlinə böyük bir fürsət düşmüşdür. Bundan istifadə etməmək xəyanətdir» [17]. İranın liberal burjua dairələrinin fikrini ifadə edərək 1945-ci il oktyabrın 11-də 14-cü məclisdəki nitqində doktor Məhəmməd Müsəddiq də deyirdi: «Ən yaxşı mövqe biz istifadə etməli indiki mövqedir. Mən yəqin edirəm ki, xarici qoşunlar bu məmləkətdən gedəndən sonra (hakim dairələr) bizim seçki qanunumuzun islah edilməsinə razı olmayacaqlar» [18].

## Cənubi Azərbaycanda siyasi partiyanın yaranması zərurəti.

Riza şahın diktaturası dağılandan sonra Cənubi Azərbaycanda siyasi partiya və ictimai təşkilatların fəaliyyətini xüsusi qeyd etmək olar. O, cümlədən "Azərbaycan cəmiyyəti", "Azərbaycan zəhmətkeşləri təşkilatı", "Demokratiya tərəfdarları mərkəzi", "Antifaşist cəmiyyət", "Azərbaycan fəhlə və zəhmətkeş həmkarlar ittifaqı", demokratik təşkilatlardan, mətbuatdan və şəxslərdən ibarət olan "Azadlıq cəbhəsi" və "İran Tudə partiyaisi" kimi ictimai və siyasi təşkilatlar 1941 — 1945-ci illərdə Azərbaycanın bütün vilayət və mahallarında, şəhərlərində, iş və yaşayış yerlərində geniş təşkilat şəbəkəsi yaratmış, böyük təbliğat və təşviqat işi aparmış, azadlıq, demokratiya və zəhmətkeşlərin hüququ uğrunda mübarizə edirdilər. 1945-ci ilin sentyabrında Azərbaycan fəhlə və zəhmətkeş həmkarlar İttifaqının 19 min nəfərdən çox üzvü var idi [19]. Yenə həmin tarixdə Azərbaycanda İran Tudə partiyasının üzvlərinin sayı 60 min nəfərə çatmışdı [20]. Azadlıq Cəbhəsi adlı ictimai təşkilatın Azərbaycanın böyük şəhərlərində nümayəndələri var idi. Bu mütərəqqi siyasi-ictimai təşkilatlar 1945-ci ildə İranın irtica qüvvələrinin azadlıq hərəkatı əleyhinə ümumi və şiddətli hücumunun qarşısını almağa və xalqın azadlığını tə'min etməyə qadir deyildilər. Yalnız ümumxalqın inqilabi qüvvəsi vasitəsilə bu işin öhdəsindən gəlmək olardı. Bunun üçün cəmiyyətin daha çox sinif və təbəqələrinin azadlıq uğrunda mübarizəyə cəlb olunması, xalqın inqilabi ən'ənə və təcrübəsindən vaxtında və bacarıqla istifadə edə bilən, aqrar münasibətlər məsələsini, İranda milli zülm olunan xalqlara öz müqəddəratını tə'yin etmək hüququ verilməsi məsələsini, orta təbəqələrə və milli burjuaziyaya münasibəti ardıcıl inqilabi mövqedən qoyan və sairə inqilabi tədbirləri həyata keçirmək uğrunda mübarizə apara bilən partiya lazım idi. Hələ 1927-ci ildə İran Kommunist Firqəsinin 2-ci qurultayı İranda imperializm və şahlıq quruluşu əleyhinə mübarizədə geniş mə'nada milli-inqilabi partiyanın yaranmasını mümkün hesab etmiş və göstərmişdir ki, bu partiya fəhlələrin, kəndlilərin və xırda burjuaziyanın inqilabi blokunun partiyası ola bilər [21].

İKP-nin bu barədə qərarında deyilirdi: «İran Kommunist Firqəsi çalışmalıdır ki, mövcud olan bütün təşkilatlar, fəhlələr, kəndlilər, sənətkarlar, habelə xırda burjuaziyanın inqilabi dəstələri ilə rabitə yaratsın. Bu rabitəni təşkilat üsulu ilə möhkəmlətsin. Yuxarıdakı təşkilatda fraksiya rolu oynayan sol dəstələr vasitəsilə həmin dəstələr arasında e'tilaf (koalisiya) yaratsın və bu yol ilə geniş inqilabi partiya təşkili üçün zəminə hazırlansın» [22].

İKP-nin bütün İran üçün nəzərdə tutduğu ümumxalq mə'nasında milli-inqilabi partiyanın yaranmasına ilk dəfə əməli olaraq S. C. Pişəvəri başladı. O, ilk növbədə Tehranda nəşr etdirdiyi «Ajir» adlı qəzetdə (05.1943—11.1945-ci illərdə) və Təbrizdə çıxan «Azərbaycan» qəzetində (1945—1946-cı illərdə) marksizm-leninizm tə'liminə və konkret faktlara əsaslanaraq İranda milli-inqilabi partiyanın milli (ümumölkə üzrə) və sinfi vəzifələrini, təşkilat və taktika əsaslarını təhlil edərək kütlələrə çatdırdı. Bu sırada «Ajir» qəzetində 1944-cü ilin iyun ayında dərc edilmiş «Hansı partiya doğru və düzgün partiyadır?» başlıqlı silsilə məqalələr xüsusilə qeyd edilməlidir. S. C. Pişəvəri bu məqalələrdə cəmiyyətdə siniflərin və təbəqələrin arasında ziddiyyət və mübarizənin partiyaların meydana gəlməsinə səbəb olmasından, siyasi partiyaların sinfi mənafe üzərində qurulmasından, bə'zi şəraitdə isə cəmiyyətin mənafeyinin vahid milli partiyanın meydana gəlməsi lüzumunu qarşıya çıxartmasından və milli partiyalarında da labüdən sinfi mənafe əsasında qüvvətlənməsindən geniş surətdə bəhs etmişdir. O, göstərirdi ki, partiyaların bünövrəsi və əsası məhz elmi nəzəriyyə üzərində qurulmalıdır. S. C. Pişəvəri məqalələrində partiyanın əhəmiyyətindən geniş surətdə bəhs edərək göstərirdi ki, partiya yaradıldıqda tarixin təkamül və sıçrayışı, zaman və məkanın mövcud şəraiti və onların tə'sirləri, cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmalıdır. Sağlam nəzəriyyə və dəqiq elmi plan olmadan, siyasi-ictimai fəaliyyət göstərilmədən nəticə əldə edilə bilməz, partiya rəhbərliyi olmadan hərəkat və üsyanlar cəmiyyət və xalq üçün xətərli və zərərlidir.

S. C. Pişəvəri siyasi partiyaların sinfi mənafe üzərində qurulduğunu' nəzərə alaraq 1941 — 1946-cı illərin konkret tarixi şəraitində İranda siniflərin vəziyyətini, bir-birilə əlaqələrini, cəmiyyətdə tutduqları mövqelərini dərindən tədqiq və təhlil etmişdir. O, bu nəticəyə gəlmişdir: «Burada (İranda Ç. M.) siniflər heç də tərəqqi etmiş ölkələrdə olduğu kimi klassik formada gözə çarpmır. Siniflər hələ bir-birindən çox da uzaqlaşmamışlar. Hər bir dəstə müəyyən şəkildə sair dəstələrlə əlaqədardır. İran kimi geri qalmış ölkələrdə cəmiyyətin müxtəlif dəstə və siniflərinin mənafeyi bir çox hallarda bir-birinə uyğun gəlir və eyniləşir. Bu siniflərin mübarizə məqsədi bir çox hallarda bir və ya bir neçə müəyyən sinif əleyhinə yönəlir. Bu cəhətdən İran kimi ölkələrdə partiya tam mə'nası ilə sinfi partiya ola bilməz. Bu əsl üzrədir ki, Şərq ölkələrindəki partiyaların bir çoxu milli (ümumxalq—M. C.) və kütləvi xarakterə malik olur» [23].

Cənubi Azərbaycanda 1941 — 1946-cı illərdə fəhlə sinfi və diygər zəhmətkeş təbəqələr təklikdə siyasi mübarizənin qələbəsini tə'min etmək imkanına malik deyildilər. Qulluqçular, azad peşə sahibləri,

dükançılar və orta təbəqələrin sair dəstələri bu və ya diygər sinif və təbəqə ilə sıxı surətdə bağlı idilər. Şəhərlərdə, qəsəbə və böyük kəndlərdə minlərlə xırda e'malatxana sahibləri eyni zamanda öz sahələrində fəhləlik edirdilər. Torpaqsız kəndlilərlə mülkədarlar arasında on minlərlə xırda torpaq sahibləri var idi. Fabrik-zavod sahiblərinin çoxu eyni zamanda ticarətlə məşğul olur və torpaq sahibi idilər.

Cənubi Azərbaycanda iri mülkədarlar və komprador burjuaziya istisna olmaqla, xalqın diygər sinif və təbəqələrinin mühüm siyasi, iqtisadi və sosial məsələlərdə mənafeləri bir-birinə uyğun gəlirdi. Azərbaycanda göstərilən sinif və təbəqələr arasında müəyyən mənafe birliyi və uyğunluğu var idi ki, onlar milli inqilabi partiya, geniş inqilabi partiya yaratmağa və onun rəhbərliyi ilə ümumxalqın inqilabi gücünü birləşdirməyə imkan verirdi. Bu sırada xüsusilə xalqa demokratik azadlıqlar vermək, ölkənin sosial-iqtisadi tərəqqisini və abadlığını tə'min etmək, feodalizm qalıqlarını ləğv etmək, maarifi, mədəniyyəti və səhiyyəni inkişaf etdirmək, milli zülm olunan xalqlara milli azadlıq vermək, ölkəni imperialist dövlətlərin asılılığından qurtarmaq, dövlət mə'murlarının, irticaçı mülkədarların və jandarmların zülm və cinayətlərinin qarşısını almaq, ölkədə ədalətli qanunun və asayişin hökmranlığını yaratmaq məsələləri ümumxalqın tələbi kimi qarşıda dururdu.

Beləliklə, Pişəvəri Cənubi Azərbaycanda ümum-xalqın mənafeyinə uyğun yeni bir partiyanın yaranması zərurətini əsaslandırdıqdan sonra həmin partiyanın yaranması uğrunda mübarizəyə başladı. S. C. Pişəvəridə olan peşəkar inqilabçıya məxsus keyfiyyətlər ona belə bir partiyanın təşkilində mühüm rol oynamağa imkan və səlahiyyət verirdi. Sosial-iqtisadi həyat və azadlıq uğrunda mübarizənin gedişi burada yeni siyasi partiyanın yaranması üçün geniş zəmin hazırlamışdı. S. C. Pişəvəri 1944—1945-ci illərdə Azərbaycana səfərləri zamanı burada yeni siyasi partiya yaranması sahəsində ikinci mühüm addımı atmış oldu. O bu məqsədlə Cənubi Azərbaycan 1905— 1911-ci illər İran inqilabından başlayaraq fəhlə, kommunist və milli-azadlıq hərəkatlarında fəal iştirak etmiş, inqilabi və demokratik partiyalarda fəaliyyət göstərmiş görkəmli inqilabçılar və adlı-sanlı azadxahlarla görüşürdü. S. C. Pişəvəri bu zaman Azərbaycanın Təbriz, Xoy, Salmas, Urmu, Sarab, Ərdəbil, Astara və başqa şəhərlərində olmuş [24] bu yerlərdə fəhlələrin, kəndlilərin, ziyalıların, sənətkarların, fabrik-zavod sahiblərinin, dükançı və tacirlərin, xırda və orta mülkədarların, ruhanilərin və dövlət qulluqçularının tərəqqipərvər, vətənpərəst və azadxah nümayəndələri ilə şəxsən görüşmüş və söhbət etmişdir. Azərbaycan xalqının ehtiyacları, hüququqları və milli-azadlığı məsələləri hərtərəfli müzakirə edilir və onların haqqında fikirlər söylənilirdi. S. C. Pişəvəri bu görüşləri və müzakirələri barədə 1944-cü ilin iyununda «Ajir» qəzetində yazırdı: «Altı aylıq seçki mübarizəsi istər-istəməz məni cəmiyyətin daxilinə sövq etdi. Hər yerə getdim. Mülkədarların təmtəraqlı evləri, kəndlilərin daxmaları, fəhlələrin mənzilləri, bir sözlə Təbriz əhalisinin bütün təbəqələri ilə tanış oldum. Mən istəyirdim eşidim, görüm, anlayım və əlac yolu tapım, mənim məqsədim dəlil, sənəd, illət axtarmaq idi» [25].

Cənubi Azərbaycanın başlıca həyati problemlərini əhatə edən bütün bu söhbət, mübahisə və müzakirələrin gedişində orada yeni siyasi partiyanı yaradanların rəhbər qrupu ortaya çıxdı, xalq hərəkatının yaranacaq partiyanın kütləvi, milli-azadlıq, demokratik və inqilabi xarakteri və vəzifələri müəyyənləşdi. Bundan sonra Cənubi Azərbaycanda 1945-ci ilin avqust-sentyabr aylarında əməli surətdə yeni siyasi partiya yaradılmasına başlandı. Bu barədə S. C. Pişəvəri yazmışdır. «firqəmizi yaradanlar milli hərəkatımızı vücuda gətirmək üçün sinifləri milli şüarlar vasitəsilə cəlb etmək lüzumunu ciddi bir surətdə dərk etmişdilər. Bu qərara gəldilər: Əvvəl Demokrat Firqəsi (partiyası—M. C.) naminə milli bir təşkilat vücudə gətirsinlər» [26].

S. C. Pişəvəri partiyanın adına xüsusi əhəmiyyət verirdi. O, bu əqidədə idi ki, «partiayaya ad qoyduqda əsas məqsəd nəzərə alınmalıdır» [27]. «Demokrat» adı geniş sinfi əsası olan bir partiya yaranması baxımından, xüsusilə Cənubi Azərbaycanda İran məşrutə inqilabından və Ş. M. Xiyabani dövründən xalqın bu xarakterdə partiya ilə tanış olması cəhətdən çox münasib idi. Bu ad partiyanın demokratik vəzifələrə malik olacağını müəyyən edirdi.

Azərbaycan Demokrat Firqəsinin təşkili. Partiyanın birinci yazılı sənədi—Azərbaycan Demokrat Firqəsinin müraciətnaməsi Azərbaycan və Fars dillərində S. C. Pişəvəri tərəfindən yazıldı. Bündan sonra Azərbaycan Demokrat Firqəsinin (ADF) ilk bəyannaməsi Təbriz, Urmu və Xoy şəhərlərinin görkəmli azadxahlarından 77 nəfər tərəfindən imza edildi və 1945-ci il sentyabrın 3-də (1324-cü il şəhrivər ayının 12-də) Azərbaycanın butün böyük-kiçik şəhərlərində yayıldı (bu sənəd 12 şəhrivər bəyannaməsi adı ilə də məşhur olmuşdur).

ADF-nin ilk bəyannaməsində o zaman İranda fəaliyyət göstərən tərəqqipərvər siyasi partiya və təşkilatlardan fərqli olaraq bir-birilə üzvi surətdə bağlı götürülmüş iki mühüm problem: Azərbaycan xalqının milli-azadlığı və İranın siyasi idarə üsulunun demokratikləşdirilməsi məsələləri irəli sürülmüşdü. Bu bəyannamədə Azərbaycana muxtariyyət əldə edilməsi, Azərbaycanın iqtisadi və mədəni tərəqqisi, Azərbaycan dilinin Azərbaycanda rəsmi dil olması kimi tələblər 12 maddədən ibarət şüarlar şəklinlə verilmişdi. Bəyannamədə yazılmışdı: İranın istiqlaliyyətini və ərazi bütövlüyünü saxlamaqla Azərbaycana daxili azadlıq verilməlidir ki, öz müqəddəratını özü tə'yin etsin [28].

1945-ci il sentyabrın 5-də Azərbaycan Demokrat Firqəsinin orqanı olan «Azərbaycan» qəzetinin birinci nömrəsi nəşr edildi. «Azərbaycan» qəzetinə S. C. Pişəvəri özü şəxsən rəhbərlik edirdi. Demək olar ki, bu qəzetin siyasi, ictimai və təşkilati əhəmiyyətli təqribən bütün baş məqalələri S. C. Pişəvəri tərəfindən yazılmışdır. «Azərbaycan» qəzeti Azərbaycan dilində çıxır, xalqa partiyanın məram və məqsədini məntiqi və çox aydın dildə çatdırırdı.

1945-ci il sentyabrın 13-də Təbrizdə ADF-ni yaradanların ilk konfransı oldu. Bu konfrans partiya işlərinə rəhbərlik etmək üçün 11 nəfərdən ibarət komitə (müəssiələr komitəsi) yaratdı. Həmin komitəyə S. C. Pişəvəri sədr və M. Ə. Şəbüstəri sədr müavini seçildi.

1945-ci il oktyabrın 2-də Təbriz şəhərində Azərbaycan Demokrat Firqəsinin birinci qurultayı açıldı. Partiyanın 38 şəhər, mahal və vilayət təşkilatı qurultaya 277 nəfər numayəndə seçmişdi. Qurultayın birinci iclasında 247 nəfər nümayəndə iştirak edirdi. ADF-nin birinci qurultayının bütün müzakirələri və yazı işləri Azərbaycan dilində aparılırdı. Qurultay ADF-nin proqramını və nizamnaməsini müzakirə və qəbul etdikdən, ADF-nin Mərkəzi Komitəsini (42 nəfər) və Mərkəzi Təftiş Komissiyasını (12 nəfər) seçdikdən sonra oktyabrın 4-də öz işini müvəffəqiyyətlə qurtardı. S. C. Pişəvəri ADF-nin birinci qurultayının gedişinə əvvəldən axıra qədər müstəqim surətdə rəhbərlik etmişdir. Qurultay ADF-nin məramnaməsini və nizamnaməsini qəbul edərək ictimai həyatın bütun sahələri üzrə partiyanın hərəkət xəttini, prinsiplərini və təşkilat quruluşunu müəyyən etdi.

ADF-nin məramnaməsində ən yaxın vəzifələr müəyyən edilərək Azərbaycanın siyasi və milli-mədəni tərəqqisini sür'ətləndirmək məqsədi ilə bilatə'xir əyalət və şəhər əncumənləri seçkisinə başlanması, Azərbaycana İran daxilində məhəlli muxtariyyət və öz həyatını istədiyi kimi qurmaq uçun geniş hüquqlar verilməsi tələb edilirdi [29]. Məramnamədə göstərilirdi ki, xalqa geniş demokratik azadlıqlar verilməli və müstəbidlər hakimiyyəti məhv edilməlidir. Məramnamənin 6-cı maddəsində isə deyilirdi: «Xalqın ümumi səs verməsi yolu ilə həqiqi xalq demokratik dövləti yaradılmalıdır» [30]. ADF-nin məramnaməsində iqtisadiyyat sahəsində dövrünü keçirib çürümüş iqtisadi üsulun müasir və ali iqtisadi-ictimai quruluş ilə əvəz olunması tələb olunurdu. Partiya məramnaməsi Azərbaycanda xalq kütlələrinin xeyrinə əsaslı demokratik islahat həyata keçirilməsini bir vəzifə olaraq qarşıya qoyurdu. O cümlədən məramnamədə kəndlilərin torpaqla tə'min olunması və fəhlələrin sosial-iqtisadi tələbləri xüsusilə qeyd edilmişdi. ADF-nin məramnaməsində Azərbaycanda maarif və mədəniyyətin demokratik məzmunda və Azərbaycan dilində hərtərəfli inkişaf etdirilməsi tələb olunurdu. S. C. Pişəvəri ADF-nin məramnaməsini belə qiymətləndirmişdir: «Məramnamənin əsas məsələsi azərbaycanlıların bir millət olaraq tanınması və muxtariyyət məsələsi hesab olunur» [31].

ADF-nin nizamnaməsi demokratik mərkəziyət prinsipini qəbul etməklə partiyanın təşkilat birliyini yaratmağa xidmət edirdi. Nizamnamədə göstərilir ki, partiyaya onun məramnamə və nizamnaməsini qəbul edən, azı 20 yaşa malik olan, partiyanın ilk təşkilatlarından birində ardıcıl iştirak edən və partiya məsuliyyəti daşıyan şəxslər qəbul oluna bilərlər. Onlar partiya tərəfindən verilən vəzifələri həyata keçirməli və hər ay partiyaya üzvluk haqqı verməlidirlər [32]. ADF-nin sinfi tərkibinin muxtəlifliyi, milli-azadlıq hərəkatının həlledici mübarizə ərəfəsində olması və partiyanı irtica agentlərindən qorumaq mülahizəsi nəzərə alındığından nizamnamədə partiya üzvlərinin hüququ müəyyən dərəcədə məhdud idi. Bir sıra hallarda mərkəziyyətə ustünlük verilirdi.

Beləliklə. S. C. Pişəvərinin təşkilinə sə'y göstərdiyi partiya yarandı və sur'ətlə boy atdı.

Azərbaycan Demokrat Firqəsinin yaranması muhum, mütərəqqi və inqilabi hadisə idi. S. C. Pişəvəri yazır ki, bu partiyanın şuarları çox aydın, konkret və başa düşüləcək idi. Xalq milli muxtariyyət, dil azadlığı, kəndli-mülkədar və fəhlə-sahibkar münasibətinin düzgün yola qoyulmasını, xalq hakimiyyətini tə'min etmək şüarını çox yaxşı başa düşürdü [33]. Ona görə də ADF-nin yaranması xalq tərəfindən böyük rəğbət və ümidlə qarşılandı.

ADF-nin ilk bəyannaməsi nəşr olan gündən (3.11. 1945) xalq kütlələri Təbrizə partiyanın və «Azərbaycan qəzetinin ünvanına göndərdikləri teleqram və məktub vasitəsilə Demokrat Firqəsinə qoşulduqlarını bildirir və bu partiyaya qəbul olunmalarını xahiş edirdilər. Təbrizdən partiyanın mərkəzindən göstəriş gözləmədən müəssislər tərəfindən Ərdəbil, Əhər, Makı, Marağa, Mərənd, Urmu və Xoy vilayətlərində Əcəbşirdə, Şişəvanda, Nəqədeydə, Culfa, Sarab və diygər şəhərlərdə partiyanın təşkilatları yarandı. Qurultaydan sonra isə ADF öz təşkilatlarını partiya proqramının və nizamnaməsinin tələblərinə uyğun olaraq qurmağa başladı. O cümlədən ilk partiya təşkilatları yaradıldı. 1945-ci il noyabrın əvvəllərinə qədər ADF-nin bütün vilayət və şəhər təşkilatlarında partiya konfransları keçirildi.

Milli-azadlıq və demokratik hərəkatın baş xəttinin qorunması. İranın şahlıq hökuməti ADF-nin yaranmasını düşmənçiliklə qarşıladı, Azərbaycan xalqının Azərbaycana muxtariyyət verilməsi, iqtisadi və mədəni inkişaf kimi qanuni tələblərinin heç birini qəbul etmədi, Azərbaycan milli-azadlıq hərəkatını silah gücünə yatırmaq xəttinə keçdi. Belə bir şəraitdə, ADF yaranandan az sonra onun qarşısında Azərbaycanda milli-azadlıq hərəkatına əməli surətdə rəhbərlik etmək kimi mühüm vəzifə durmuşdu. Bu vəzifənin həyata keçirilməsində partiyanın və hərəkatın baş xəttinin qorunmasının çox  böyük əhəmiyyəti olmuşdur.

ADF-nin ilk bəyannaməsində, proqramında və Azərbaycan Xalq Konqresinin qərarlarında İran daxilində Azərbaycana muxtariyyət verilməsi, Azərbaycanın sosial, iqtisadi və mədəni tərəqqisi, Azərbaycanda Azərbaycan dilinin rəsmi dil olması və İranın siyasi quruluşunun demokratikləşdirilməsi uğrunda mübarizə partiyanın və hərəkatın baş xətti kimi müəyyənləşdirilmişdi.

Azərbaycan Demokrat Firqəsi yarandığı gündən baş xəttin qorunması uğrunda mübarizə aparmışdır. ADF-nin ilk bəyannaməsi yazılarkən bu partiyanı yaradanların bir qrupu fəqət mədəni muxtariyyət şüarı irəli sürmüşdülər və bu birinci maddədə belə də əks olmuşdu. Bu barədə S. C. Pişəvəri belə yazır: «Biz bilirdik ki, əlimizdə dövlət təşkilatı, siyasi qüdrət və ixtiyar olmazsa fars mütəəssibləri bizə mədəni muxtariyyət verməyəcəklər. Mədəni muxtariyyət ibarəsi məhdud olduğu... üçün daxili azadlıq və öz  müqəddəratını özü tə'yin etsin sözü ilə muxtariyyət sözünü əvəz etdik» [34]. O zaman İran hökuməti bütün vasitələrlə ADF-nin və milli-azadlıq hərəkatının baş xəttində əyintilər yaratmağa çalışırdı. Urmu vilayətində Təbrizə—Azərbaycanın mərkəzinə tabe olmayaraq Tehranla əlaqə saxlayan;

muxtariyyət, milli-mədəni tərəqqi, Azərbaycan dilində maarif və idarə kimi xalq üçün həyati əhəmiyyəti olan məsələlərdən imtina edən Demokrat Firqəsi yaratmağa cəhd olundu. Bə'ziləri ADF-yə daxil olmaq üçün qeyd və şərt qoyur, Azərbaycanın İrandan ayrıldığı və ilhaq məsələsi kimi yalan xəbərlər yayır, prezident seçkisi keçirildiyini uydurur, bütun torpaqların bölünməsini və sərmayədarların məhv edilməsini və i. a. irəli sürürdülər. Digər tərəfdən isə mülkədarlardan bə'zisi jandarm qüvvələri vasitəsilə kəndlilər üzərində zülmü son həddə çatdırıb, bə'zi fabrik-zavod sahibi isə fəhlə sahibkar münasibətini son dorəcə gərginləşdirirdi. Bütün bunlar ADF-nin baş xəttinin əleyhinə idi, milli-azadlıq hərəkatını zəiflədirdi. Ona görə də partiya qəti surətdə onların əleyhinə çıxdı. ADF-nin orqanı olan «Azərbaycan» qəzeti partiya yaranandan 15 gün sonra yazırdı: « Şüarlarımızın əleyhinə sol şüarlar ilə özlərini pəhlivan göstərmək istəyən lovğalara Demokrat Firqəsində meydan verilməyəçəkdir» [35]. S. C. Pişəvəri partiyanın orqanında qətiyyətlə bildirirdi: «Bəyannamədə göstərilən şüarları islah etmək mümkündür. Lakin onların əsas və prinsipini  dəyişmək olmaz» [36]. S. C. Pişəvəri partiyanın baş xəttini inqilabi mövqedən və ardıcıl surətdə müdafiə edirdi. O, partiya qurultayında çıxışda deyirdi: «Biz İranın istiqlaliyyətini və Azərbaycanın daxili muxtariyyətini istəyirik. Kimin bu məramlara əlaqəsi var qalsın. Kim bu şüarlar ilə müxalifdir, indidən getsin» [37]. S. C. Pişəvərinin sə'yi nəticəsində partiya qurultayında partiyanın baş xətti qətiyyətlə müdafiə olundu. Partiya qurultayının müzakirəsinə verilən partiya proqramı layihəsinin birinci maddəsində (ümumi siyasi məsələlər bölməsində) Azərbaycana ixtiyarat əldə etmək əsas vəzifələrdən hesab olunurdu. Bu, partiyanın ilk bəyannaməsində e'lan olunmuş baş xəttdən geri çəkilmək demək idi. «İxtiyarat» sözü hakimiyyət uğrunda mübarizəni və öz müqəddəratını tə'yin etmək hüququnu özündə əks etdirmirdi. Milli-azadlıq qüvvələri onun ətrafında birləşməzdilər. Buna görə də ADF qurultayının nümayəndələri ilk çıxışlarından Azərbaycanın daxili muxtariyyəti tələbini irəli sürdülər. S. C. Pişəvəri də öz çıxışında göstərirdi: «hökumət xalqın əlində olmalıdır. Bu da məhəlli və milli muxtariyyət vasitəsi ilə ola bilər» [38]. Müzakirələr nəticəsində qurultay yekdilliklə partiyanın proqramında «ixtiyarat» sözunün muxtariyyət ilə əvəz edilməsini qərara aldı [39]. Azərbaycandan gedib və Azərbaycanın azadlığı əleyhinə mübarizə aparan mülkədarların torpaqlarının kəndlilər arasında bölünməsi məsələsi qurultayda müzakirə edildiyi zaman iki-üç nəfərin çıxışında partiyanın baş xəttini əymək meyli özünü göstərdi. Nümayəndələrdən biri bütün torpaqların bölünməsini təklif edirdi. S. C. Pişəvəri qurultayda müzakirə olunan bu məsələ barədə çıxışında demişdir: «İndiki vəziyətdə torpaq bölgusü (bütun torpaqların bölgüsü—M. Ç.) məsələsini meydana atmaq səhih deyildir. Bu fikir çox məntiqi və adilanədir, amma bugunkü şərait ona icazə vermir» [40]. Nümayəndələrdən bir neçəsi Azəpbaycandan gedib azadlıq əleyhinə mübarizə aparan mülkədarların torpaqlarının kəndlilər arasında bölunməsi əleyhinə çıxaraq, bu torpaqlardan gələn gəlirin partiyanın ehtiyaclarına sərf olunmasını və ya bu gəlir ilə kənd təsərrüfatı bankı yaradılmasını təklif etdilər [41]. Qurultay bu təklifləri də rədd etdi və o dövr üçün daha düzgün olan yol seçdi: azadlıq düşməni olan mülkədarların torpaqlarının musadirə olunub kəndlilərin ixtiyarına verilməsi və qalan mülkədarlarla

kəndlilər arasında münasibətin xüsusi qanunla müəyyən edilməsi qərara alındı və partiyanın proqramına daxil edildi. [42]. Bir müddət sonra, 1947-ci ilin iyun ayında S. C. Pişəvəri torpaq bölgüsü barədə ADF-nin tutduğu mövqe haqqında izahat verib belə yazmışdır: «Azərbaycanda torpağın ən mühum hissəsi iri mülkədarların ixtiyarındadır. Yüz minlərə qədər xırda mülkədar və aztorpaqlı kəndlini kənar etmək olmaz. Biz Azərbaycanda olan şərait daxilində xüsusi mülkiyyəti ləğv edə bilməzdik. Biz eləyə bilməzdik milli (ümumxalq—M. Ç.) bir partiya olduğumuz halda birinci qədəmdə sinfi mübarizəni alovlandıraq» [43]. Partiyanın təşkilat işlərində də baş xəttdən əyinti özünü göstərmişdi. ADF-nin Ərdəbil, Mərənd və Urmu vilayət komitələrində iri mülkədar və tacirlər rəhbərliyi ələ keçirmişdilər. Onlar partiyanın fəaliyyətini öz mənafelərinə uyğunlaşdırmağa çalışırdılar. Partiyanın Təbriz təşkilatlarının da şəhər komitəsinin nəzarətindən çıxmaq təhlükəsi yaranmışdı. S. C. Pişəvərinin bilavasitə təşəbbüsü ilə ADF- nin Mərkəzi Komitəsi və 1945-ci ilin noyabrında keçirilən vilayət konfransları bu vəziyyətin qarşısını aldı. Təbriz komitəsinə və göstərilən vilayət partiya komitələrinə partiyanın proqramını və milli-azadlıq hərəkatının inqilabi prinsiplərini ardıcıl olaraq gözləyən və həyata keçirən şəxslər seçildilər. ADF-ni yaradanların ilk konfransında (13.11.1945) partiyanın müəssislər Komitəsi yarandığı və ondan sonra ADF-nin qurultayı tərəfindən partiyanın Mərkəzi Komitəsi və Mərkəzi Təftiş Komissiyası seçildiyi (4.10.1945) tarixdən Azərbaycanda milli-azadlıq hərəkatına partiya tərəfindən kollektiv rəhbərlik edilmişdir. Partiyanın Mərkəzi Komitəsinin geniş plenumlarında vaxtaşırı olaraq günün mühüm problemləri müzakirə olunmuş, muvafiq qərarlar çıxarılmış və həyata keçirilməyə başlanmışdır. Bu kollektiv rəhbərlikdə S. C. Pişəvəri inqilabi təcrübəsinə, nəzəri hazırlığına, təşkilatçılıq bacarığına və ölkənin siyasi, iqtisadi və milli həyatına çox dərindən bələd olduğuna görə xüsusi yer tuturdu. S. C. Pişəvəri partiyanın Mərkəzi Komitəsinin göstləişlərini həyata keçirərək Azəpbaycanda inqilabi hərəkatın, milli-azadlıq mübarizəsinin ayrı-ayrı mərhələlərinə çox vaxtında və düzgün istiqamət vermişdir.

ADF-nin Mərkəzi Komitəsinin birinci geniş plenumu 1945-ci il oktyabrın 4-də Təbrizdə təşkil olunmuşdur. Plenumda partiyanın rəhbər və məs'ul işçilərindən 80 nəfərə yaxın iştirak etmişlir. Plenum cari işləri idarə etmək üçün 9 nəfərdən ibarət hey'ət seçdi. Plenumun bu seçkisi haqqında həmin gün öz işini qurtarmaqda olan partiya qurultayına mə'lumat verildi. Qurultay tərəfindən S. C. Pişəvəri ADF MK-nın sədri, M. Ə. Şəbüstəri və S. Badəqan müavinləri seçildilər [44]. ADF MK-nın icraiyyə hey'əti S. C. Pişəvəri, S. Badəqan, M. Birya, S. Cavid və M. Ə. Şəbüstəridən ibarət olmuş və 1946-cı ilin oktyabrından Z. Qiyami, M. Vilayi, M. Nünəkərani və T. Şahin də MK-nın icraiyyə hey'ətinə cəlb olunmuş və onun iclaslarında üzv kimi iştirak etmişlər.

**Azərbaycan Demokrat Firqəsinin xalq hakimiyyəti uğrunda mübarizəyə rəhbərliyi.**

İranın şahlıq hökuməti ilə Azərbaycan xalqı arasında münasibət son dərəcə gərginləşdiyi şəraitdə, 1945-ci il noyabrın 8—9-da Təbriz şəhərində ADF Mərkəzi Komitəsinin **ikinci geniş plenumu** oldu. Plenumda ADF MK-nın sədri S. C. Pişəvəri «Ümumi siyasi vəziyyət və partiyanın gündəlik şüarları» haqqında mə'ruzə etdi. Bundan əlavə əyalət və vilayət əncümənləri, İran Məclisi seçkilərinə dair mə'ruzələr və müzakirələr də oldu. Plenumun S. C. Pişəvərinin mə'ruzəsi əsasında qəbul etdiyi qərarının Azərbaycan milli-azadlıq hərəkatında böyük inqilabi əhəmiyyəti olmuşdur. Həmin qərarın üçüncü maddəsində deyilirdi: «Əyalət və vilayət əncümənlərinin seçkisini xalqın öz gücü ilə başlamaq. Komitə (ADF-nin Mərkəzi Komitəsi— M. Ç.) yaxın bir zamanda bütün Azərbaycan xalqı tərəfindən seçilən nümayəndələrdən böyük bir konfrans təşkil etməlidir» [45]. Göstərilən qərarın altıncı maddəsində isə deyilirdi: «Kəndlərdə kəndlilərə hücum edən jandarmların ümum camaatın qüvvəsi ilə qabağı alınsın» [46]. ADF MK-nın bu qərarı Azərbaycanda xalq hakimiyyəti uğrunda əməli mübarizəyə göstəriş idi. S. C. Pişəvəri xalq hakimiyyəti uğrunda mübarizənin iki istiqamətdə getdiyini qeyd edirdi. Biri xalq hakimiyyəti yaranması uğrunda dinc yolla siyasi mübarizə, o biri silahlı mubarizə.

Azərbaycanda xalq hakimiyyəti yaranması uğrunda dinc siyasi mübarizə 1945-ci il noyabrın 10-dan 20-dək Azərbaycanın butün qəsəbə və şəhərlərində izdihamlı xalq yığıncaqları təşkil olunmaqla həyata keçdi. Azərbaycan əhalisinin bir milyon yarımdan çoxunun iştirak etdiyi bu yığıncaqlarda xalq Azərbaycana İran daxilində muxtariyyət verilməsini, tezliklə əyalət və vilayət əncümənlərinin təşkil olunmasını tələb edən qərarlar qəbul edir, bu qərarların həyata keçirilməsini sür'ətləndirmək üçün öz aralarında nümayəndələr seçirdi. Pişəvərinin göstərdiyi kimi «Nümayəndələr içərisində Azərbaycan xalqının bütün sinifləri gözə çarpırdı» [47].

Xalq yığıncaqlarında seçilmiş nümayəndələrin (724 nəfər) iştirakı ilə 1945-ci il noyabrın 20—21-də Təbrizdə Azərbaycan Xalq Konqresi (AXK) keçirildi. Bu zaman Azərbaycan xalqına yəqin olmuşdu ki, İran dövləti ona muxtariyyət və azadlıq verməyəcəkdir. Hökumət əyalət və vilayət əncümənlərinin təşkil olmayacağını hətta rəsmi surətdə e'lan etdi. Ona görə də Azərbaycan Xalq Konqresi özünü müəssislər məclisi e'lan etdi, Azərbaycan Milli Məclisi və Milli hökuməti yaratmağı qərara aldı. Konqres öz nümayəndələrindən 39 nəfərdən ibarət Milli hey'ət seçib, qərarlarının həyata keçirilməsini ona tapşırdı. S. C. Pişəvəri ADF MK-nın sədri və Milli hey'ətin üzvü olmaqla onun fəaliyyətində yaxından iştirak edirdi.

Azərbaycan Milli hey'əti işə başladığı gündən (21.11. 1945) Azərbaycanda ikihakimiyyətlilik yarandı: biri xalqın, o biri isə irticanın rəsmi dövlət hakimiyyəti idi. Milli hey'əti vəzifəsinə, gördüyü işlərə və arxalandığı qüvvəyə görə müvəqqəti inqilabi hökumət adlandırmaq olardı. Milli hey'ət xalqın qüdrətinə arxalanaraq bir sıra inqilabi əhəmiyyətli işlər gördü: İran hökuməti tərəfindən Azərbaycanda taxılın daşınıb aparılmasının qarşısını aldı, irticaçı mülkədarların əsassız şikayətləri üzrə həbs olunmuş yüzlərlə kəndlini həbsdən azad etdirdi, xalqın asayişini pozanlarla inqilabi yol ilə mübarizə apardı və s.

Milli hey'ət 1945-ci il noyabrın 25-də Təbrizdə bir neçə nəfər iri tacir, mülkədar, ruhani və yüksək rütbəli dövlət qulluqçusunun iştirakı ilə müzakirələr və dekabrın 8—11-də isə şahın və İran hökumətinin nümayəndəsi Murtuza Bəyatla danışıqlar apardı. Bu danışıqlara İran hökuməti təşəbbüs etmişdi. O bu yol ilə Azərbaycan demokratları müqabilində siyasi qüvvə yaratmaq, vaxt qazanmaq və xalqı aldatmaq istəyirdi. Lakin xalqa bir daha mə'lum oldu ki, İran dövləti Azərbaycana muxtariyyət vermək istəmir və danışıq üçün göndərdiyi şəxsin heç bir qərar qəbul etmək səlahiyyəti yoxdur.

Azərbaycan Milli hey'əti Azərbaycan Milli Məclisi seçkilərinə başlamaq haqqında 1945-ci il noyabrın 21-də fərman verdi. Bu iş öz-özlüyündə inqilabi əhəmiyyətə malik idi. İranda seçki fərmanını dövlət başçısı—şah verirdi. S. C. Pişəvəri seçki fərmanının şahsız verilməsini «böyük bir iş» adlandırmışdır [48]. Azərbaycan Milli Məclisinin seçki qanunu əsasında 1945-ci il noyabrın 27-dən Azərbaycanın bütün vilayətlərində Azərbaycan Milli Məclisinə seçkilər başlandı. Bu zaman Təbriz, Ərdəbil, Urmu, Marağa, Miyandab, Əhər, Meşkin, Xalxal, Xoy, Makı, Mərənd və Salmas kimi şəhərlər İran hökumətinin silahlı qüvvələrinin hökmranlığı altında idi. Onlar Azərbaycan Milli Məclisinə seçkiləri pozmağa çalışırdılar. Buna baxmayaraq seçkilər dekabrın 1-də hər yerdə böyük müvəffəqiyyətlə qurtardı. 32 seçki dairəsindən 100 nəfər deputat seçildi. Bunların çox böyük əksəriyyətini Azərbaycan əhalisinin ən görkəmli inqilabçı, vətənpərəst və maarifpərvər şəxsləri təşkil edirdilər. S. C. Pişəvəri Azərbaycanda xalq hakimiyyəti yaranması uğrunda siyasi-ictimai mübarizədə ADF MK-nın sədr müavinləri M. Ə. Şəbüstəri və S. Badəqan başda olmaqla X. Azərbadəqan, M. Birya, M. Vilayi, Z. Qiyami, H. Zəfiri, K. Haşimniya, H. Cövdət, T. Şahin və başqalarının** təşkilatçılıq fəaliyyətinə yüksək qiymət vermişdir [49].

ADF xalq hakimiyyəti uğrunda dinc siyasi mübarizə ilə yanaşı silahlı mübarizə istiqamətində də hazırlıq işləri aparırdı. ADF-nin Mərkəzi Komitəsinin 1945-ci il noyabr plenumunun qərarında kəndlilərə hücum edən jandarmların qabağının alınmasına göstəriş verilmişdi. Aydın idi ki, xalq jandarmların qarşısını almaq istədikdə jandarmlarla, irticaçı mülkədarlarla və dövlət qoşunları ilə vuruşmalı olacaqdı və hadisələrin gedişi xalqı silahlı mübarizəyə gətirib çıxaracaqdı. Buna görə də qabaqcadan hazırlıq görülmədən, düşünülmədən belə bir qərar həyati deyildi. S. C. Pişəvəri yazır ki, ADF yaranan gündən «istədiklərimizi tə'min etmək üçün möhkəm bir hərbi təşkilat yaratmaq yolunda çalışırdı» [50]. Hərtərəfli hazırlıqdan sonra 1945-ci il oktyabrın ikinci yarısından xalq hakimiyyəti yaratmaq uğrunda silahlı mübarizə başlandı. O zaman ələ silah götürüb xalq hakimiyyəti uğrunda mütəşəkkil mübarizə aparan şəxslər Fədai adlanırdılar. S. C. Pişəvəri yazır: «O günlərdə Fədai dəstələri ilə müstəqimən özüm rabitə saxlayırdım» [51]. Xalq hakimiyyəti uğrunda silahlı mübarizəyə də ADF-nin Mərkəzi Komitəsinin hərbi rəhbərliyi başçılıq edirdi. ADF MK-nın sənədlərindən mə'lum olur ki, silahlı mübarizənin hərbi strategiya və taktikası barədə iki başlıca təklif olmuşdur. Birincisi, silahlı bir dəstəni gizlicə Təbriz şəhərinə toplamaq, İran hökumətinin bu şəhərdəki silahlı qüvvələrinə qəfildən

hücum edərək onları tərksilah etmək, idarələri tutmaq, eyni zamanda bu əməliyyatı bir-iki böyük şəhərdə də tətbiq edərək hücumu genişləndirmək təklifi idi [52]. ADF-nin hərbi rəhbərliyi bu təklifi rədd etmişdir, çünki bu təklif xalqın özünün inqilabda iştirak etməsini nəzərdə tutmurdu və silahlı dəstəni xalqın köməyindən məhrum edirdi. Qeyri-inqilabi mahiyyətdə olan bu plan mütləq məğlubiyyətlə nəticələnərdi. Silahlı mübarizə barədə ikinci təklif Azərbaycanın bir neçə mahalında, kənd yerlərində eyni vaxtda partizan vuruşlarına başlamaqdan ibarət idi. Ümumi hərbi taktika olaraq qərara alınmışdı: İran hökumətinin Azərbaycanda böyük şəhərlərdəki silahlı qüvvələrinin bir-birilə əlaqələrini eyni vaxtda kəsmək, əvvəlcə kənd yerlərində silahlı irticaçıları və jandarm dəstələrini tərksilah etmək, qənimət alınan silahlarla əlavə fədai qüvvələri yaratmaq, kiçik şəhərləri və nəhayət mühasirə yolu ilə böyük şəhərləri azad etmək [53].

İran hökuməti Azərbaycandakı bütün silahlı qüvvələrini və irticaçı mülkədarların silahlı dəstələrini milli-azadlıq hərəkatı əleyhinə səfərbər etdi və böyük cinayətlərə başladı.

ADF inqilabi hərəkatın gedişinə gündəlik rəhbərlik edirdi. Silahlı mübarizəyə hazırlıqdan asılı olaraq ADF-nin orqanı olan «Azərbaycan» qəzetində konkret göstəriş verilirdi, S. C. Pişəvəri 1945-ci il oktyabrın 12-də «Azərbaycan» qəzetində yazırdı: «Biz bununla bütün xalqımızı təhəmülə, səbrə və mətanətə də'vət edirik». Oktyabrın 26-da isə yazırdı: «Biz açıq deyirik: əgər jandarm rəisləri başladıqları cinayətlərdən əl götürməzsə, əgər dövlət mə'murları yerlərində oturmazsa, xalq özü qalxar, onları yerində oturdar». Azərbaycan xalqı milli-azadlıq uğrunda silahlı mübarizəyə hərtərəfli hazır olduğu gün— noyabrın 16-da ADF-nin göstərişi ilə əlaqədar S. C. Pişəvəri «Azərbaycan» qəzetində yazırdı: «Xalq öz başına çarə etməlidir».

Həmin gün, 1945-ci il noyabrın 16-da Tehrandan İran qoşunlarının Baş qərargahı tərəfindən Təbrizə, Azərbaycandakı diviziya komandanına verilən əmrdə deyilirdi: «Ərdəbil, Təbriz və Rizaiyyə (Urmu— M. Ç.) şəhərlərində və sair yerlərdə jandarmları və polisləri də öz əmriniz altına almaqla dövlət idarələrini, xüsusən valiliyi zabitlərin və əskərlərin son qətrə qanına qədər silahlı müdafiə edin. Şəhərlərdə sakitlik yaradın və hər cür inqilabın qarşısını alın» [54].

Azərbaycan fədailəri İranın irticaçı hökumətinin silahlı qüvvələrinə ilk zərbəni 1945-ci il noyabrın 16-dan 17-sinə keçən gecə Marağa, Mərənd, Miyana, Sarab və Ərdəbil mahallarında eyni bir vaxtda vurdular. Nəticədə noyabrın 17-də Miyana, Sarab və Nir şəhərləri, Marağanın Əcəbşir, Binab və Şişəvan qəsəbələri, Qulukənd və Xacəmir kəndləri, Mərəndin Yam kəndi və Ərdəbilin bir neçə böyük kəndi hökumət qüvvələrindən azad edildilər. Beləliklə də Təbriz, Ərdəbil, Astara, Marağa, Miyandab, Urmu, Xoy və Makı şəhərlərindəki hökumət qüvvələri bir-birindən ayrı salınaraq təklənmiş oldular. Azərbaycan fədailəri bir-birinin ardınca Azərbaycan kəndlərini, qəsəbələrini və şəhərlərini İran hökumətinin silahlı qüvvələrindən azad etdilər. Dekabrın 12-də Təbriz şəhəri fədailər tərəfindən

mühasirəyə alınaraq İran qoşun hissələrindən təmizləndi. Ən sonuncu azad edilən Urmu şəhəri oldu (19.12.1945). Dekabr ayının 20-dən Azəbaycan İranın irticaçı hökumətinin zülmündən tamamilə xilas edildi. S. C. Pişəvəri Azərbaycanda xalq hakimiyyəti yaranması uğrunda silahlı mübarizədə (23.10—20.12.1945) fədai başçılarından Təbrizdən C. Kavyanın, Urmudan M. Ə. Azadvətənin, Ərdəbildən Ə. M. Məhəmmədvəndin, Marağadan M. R. Kəbirinin, Xoydan N. X. Yekaninin, Zəncandan Q. X. Osanlunun, Miyandabdan Q. Sübhinin və A. Sadiqyanın, Sarabdan Q. R. Cavidanın, Mərənddən S. K. Ələmin, Miyanadən Q. Daneşyanın, Astaradan f. Dehqanın, Ə. Haşiminin və başqa fədai başçılarının şücaət və fədakarlıq göstərdiklərini xüsusilə qeyd etmişdir [55]. İran qoşununda olmuş inqilabçı zabitlərdən Azərbaycana gələnlər də xalq hakimiyyəti qurulması uğrunda qəhrəmanlıqla vuruşdular.

1945-ci il dekabrın 12-də Təbriz şəhərində Azərbaycan Milli Məclisi açıldı və həmin gün Azərbaycan Milli hökuməti təşkil oldu. 12—13 dekabr günləri görülən bütün mühüm inqilabi əhəmiyyətli işlərə S. C. Pişəvərinin bilavasitə iştirakı ilə ADF MK tərəfindən rəhbərlik edilmişdir. O cümlədən dekabrın 12-nə qədər Təbrizi mühasirə etmiş fədai qüvvələrinin Təbrizə daxil olması, Azərbaycan Milli Məclisinin açılışı, məclisin daxili nizamnaməsinin yazılması və qəbul edilməsi; Azərbaycan Milli hökumətinin tərkibi və iş proqramı hazırlanaraq Milli Məclisin müzakirəsinə və təsdiqinə təklif olunması; İran hökumətinin Təbriz şəhərindəki jandarm, polis və qoşun qüvvələrinin təslim olması (13.12.1945) haqqında onun komandanları ilə danışıq aparılması kimi çox mühüm inqilabi işləri göstərmək olar.

Azərbaycan Milli hökuməti, S. C. Pişəvəri Nazirlər Şurasının Sədri (Baş nazir) olmaqla daxili işlər, xalq qoşunları, kənd təsərrüfatı, maarif, səhiyyə, maliyyə, ədliyyə; yol, poçt, teleqraf və telefon; ticarət və iqtisad, iş və zəhmət nazirliklərindən ibarət olmuşdur (İran daxilində Azərbaycan muxtariyyəti prinsipinə və Azərbaycan Milli Məclisinin həmin prinsipi gözləyən daxili nizamnaməsinə uyğun olaraq Azərbaycan Milli hekuməti tərkibində hərbi və xarici işlər nazirlikləri yaradılmadı). Milli Məclis Z.Qiyamini Azərbaycan Ali məhkəməsinin rəisi və F. İbrahimini Azərbaycan prokuroru seçmişdi.

Azərbaycan Milli hökumətinin iş proqramında İran daxilində Azərbaycanın muxtariyyəti prinsipinə tamamilə riayət olunmuşdur. Bu proqramda Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni həyatının bütün sahələrinin milli-azadlıq və demokratiya əsasları üzrə yenidən qurulması, inkişaf etdirilməsi və Azərbaycanın muxtariyyətinin həyata keçirilməsi və möhkəmləndirilməsi üçün yaxın müddətdə görüləcək əsas vəzifələr müəyyən olunmuşdu.

1946-cı il yanvarın 26—29-da ADF Mərkəzi Komitəsinin Təbriz şəhərində keçirilmiş üçüncü (Azərbaycanda xalq hakimiyyəti dövründə birinci) plenumu (plenumda partiyanın 36 təşkilatının və xalq hakimiyyəti orqanlarının 128 nəfər rəhbər və məs'ul işçiləri iştirak edirdi) ADF MK-nin sədri S. C. Pişəvərinin «Firqə və milli dövlətin əsas məsələləri haqqında» mə'ruzəsi əsasında qəbul etdiyi qərarda

MK icraiyyə hey'ətinin milli-azadlıq mübarizəsində gördüyü işləri təqdir və Milli hökumətin yaradılması yolunda götürdüyü hərəkət xətti təsdiq etdi. Bu qərarda deyilmişdir: «Milli devlət və Milli Məclisin başladıqları böyük islahat gərək dəqiq bir surətdə davam etdirilsin və Mərkəzi Komitə bu islahatın demokratik və milli əsaslar üzərində həyata keçirilməsinə yaxından nəzarət etsin» [56]. Plenum Milli hökumətin iş proqramının daha sür'ətlə və daha diqqətlə həyata keçirilməsi üçün MK-nın icraiyyə hey'ətinə tapşırıq verdi və bu sahədə bütün partiya üzvlərinin var qüvvəsi ilə çalışmasını lazım gördü. Mərkəzi Komitə plenumu Firqənın xalq hakimiyyətinə Firqə təşkilatları və idarələrdə işləyən Firqə üzvləri vasitəsilə rəhbərlik edəcəyini müəyyən etdi.

Beləliklə, S. C. Pişəvəri ADF və AMH-nin yaranması uğrunda mübarizədə son dərəcə mühüm rol oynamış, bununla yanaşı Firqənın MK-nın sədri və Milli hökumətin Baş naziri olaraq Firqə proqramının və Milli hekumətin iş proqramının həyata keçirilməsinə də bilavasitə rəhbərlik etmişdir.

### Ədəbiyyat


1 Lenin, külliyyatı, 2-ci c., s. 192.
2 Bərnamə və nezamnameye Hezbe Tudeye İran, Tehran, 1944, s.2. İran Azadlıq Cəbhəsinin məramnaməsi, bax: «Xavəre No», (Təbriz), 11.02.1945.
3 İran Tudə partiyasının məramnamə və nizamnaməsi, s. 1.
4 «Nameye Rəhbər», (Tehran), 27.11.1945.
5 «Azərbaycan», (Təbriz), 12.09. 1945.
6 «Azərbaycan», 10.09.1945.
7 «Yəğma» (Tehran), 21.10.1945.
7 a «Nəsime səba» və «Azadəqan» (Tehran). 19.11.1945.
8 H. Keyostvan. Siyasəte movazeneye mənfi dər məclese 14, Tehran, 1950, 2-ci cild, s. 90.
9 «Cəbhe» (Tehran), 26.12.1945. İran partiyasının orqanı.
10 «Azərbaycan», 12.10.1945.
11 «Azərbaycan» 30.11.1945.
12 Qızıl səhifələr, Təbriz, 1946, s. 373.
13 «Azərbaycan», 11.12.1945.
14 Yenə orada.
15 «Azərbaycan», 12.09.1945.
18 Yenə orada. 20.09.1945.
17 Mircəfər Pişəvəri (Cavadzade Xalxali). Seçilmiş əsərləri (yersiz), 1965, s. 220.
18 H. Keyostvan. Siyasəte movazeneyi mənfi dər məclise 14-cü, s. 147—148.
19 «Azərbaycan», 24.09.1945.
20 «Azərbaycan», 20.09.1945.
21 Jurnal «Kommunistiçeskii Internatsional». M., 1921, № 50, s. 33.
22 «Azərbaycan» (yersiz), 1965, s. 139. ADF MK-nın nəzəri və siyasi orqanı.
23 Mircəfər Pişəvəri. Seçilmiiş əsərləri, s. 406—407.
24 S. C. Pişəvəri 19.05.1944, 25.09.1944, 10—20.02.1945 may-iyul, avqust 1945-ci ildə dəfələrlə Təbrizdə, 1945-ci il martın ortalarında Xoy, Salmas və Urmu şəhərlərində, aprelin ikinci yarısında Ərdəbil və Astara şəhərlərində olmuşdur.
25 «Ajir» (Tehran), 11 .06. 1944.
26 Şəhrivərin On İkisi. 1945—1946, Təbriz, 1325, s. 2.
27 Mircəfər Pişəvəri. Seçilmiş əsərləri, s. 408.
28 Azərbaycan Demokrat Firqəsinin mürəciətnaməsi. Təbriz, 1945.
29 Azərbaycan Demokrat Firqəsinin məramnaməsi və nizamnaməsi. Təbriz, 1945, s. 10.
30 Yenə orada, s. 10.
31 S. C. Pişdvəri. İran Azərbaycanında demokratik hərəkat tarixi (yersiz), 1947, 1c., s. 79.
32 Azərbaycan Demokrat Firqəsinin məramnaməsi və nizamnaməsi s. 23.
33 S. C. Pişəvəri. İran Azərbaycanında demokratik hərəkat tarixi, 1947, 2-ci c., s. 4.
34 S. C. Pişəvəri. İran Azərbayçanında demokratik hərəkat tarixi, 1 c., s. 45.
35 «Azərbaycan» (Təbriz), 18.09.1945.
36 Yenə orada, 28.09.1945.
37 Yenə orada, 5.10.1945.
38 Azərbaycan SSR EA TI-nin elmi arxivi, f. 5 inv. 1, iş 29, s. 10.
39 Yenə orada.
40 Yenə orada.
41 Yenə orada.
42 Azərbaycan Demokrat Firqəsinin məramnaməsi və nizamnaməsi, s. 10—11.
43 S. C. Pişəvəri. İran Azərbaycanında demokratik hərəkat tarixi, I c., s. 72.
44 Yenə orada, s. 76.
45 «Qızıl Səhifələr», s. 292.
46 Yenə orada.
47 S. C. Pişəvəri. İran Azərbaycanında demokratik hərəkat tarixi, 2-ci c. s. 47. 27.
48 Yenə orada, s. 61.
49 «Azərbaycan» (Təbriz), 4.09.1946:
50 S. C. Pişəvəri. İran Azərbaycanında demokratik hərəkat tarixi, 2-ci c. s. 76.
51 Yenə orada, s. 15.
52 Yenə orada, s. 85.
53 ADF Mərkəzi-Komitəsinin 26—29.1.1946-cı il tarixli plenumun sənədləri, s. 3.
54 Pesyan N. -Tarixçeye Ferqeye Demokrate Azərbaycan və hezbe Komeleye Kordestan, Tehran, 1948, s. 29.
55 «Azərbaycan» (Təbriz), 4.09. 1946.
56 «Azərbaycan» (Təbriz), 31.01.1946.


* S. C. Pişərəvi Mircəfər (və ya Cəfər) Pişərəvi adı ilə də tanınır.

** Göstərilən partiya fəalları sırasında məqalənin müəllifi M. M. çeşmazərin də adı çəkilmişdir—red. hey'əti.